

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 247 (23.409)

*28 dekabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar.

"Şahdağ" Turizm Mərkəzinə gələn dövlətimizin başçısı burada xizək sürüb.

Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən "Şahdağ" Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub.

Baş Nazirin birinci müavini Yaqub Eyyubov və "Şahdağ" Turizm Mərkəzi QSC-nin sədri Rodderix Leffler dövlətimizin başçısına burada görülən və həyata keçirilməsi nəzərdə tutulan işlər haqqında məlumat veriblər.

"Şahdağ" Turizm Mərkəzində görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı deyib ki, bura indi dünya səviyyəli xizək kurortudur. Burada həm peşəkarlar, həm də yeni başlayanlar üçün çox rahat enişlər var. Gələcəkdə kompleksin genişləndirilməsi ilə bağlı əlavə planlar olacaq.

Prezident İlham Əliyev "Şahdağ" Turizm Mərkəzinin üçüncü mərhələsi üzrə layihə işləri ilə bağlı tapşırıqlarını verib.

Dövlətimizin başçısı və xanımı turistlərlə, kompleksin işçiləri ilə xatirə şəkilləri çəkdiriblər.



## Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında 2019-cu ilin yekunları müzakirə olunub




*Dekabrın 27-də Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 2019-cu ilin yekunları ilə bağlı tədbiri keçirilib.*

Əvvəlcə rayon şahmat məktəblərinin direktorları 2019-cu ildəki fəaliyyətləri barədə hesabat veriblər. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev isə federasiya üzrə 2019-cu ildə görülən işlərdən danışıb, yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə şahmatçılar adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək deyib ki, Azərbaycanda şahmata dövlət tərəfindən böyük diqqət göstərilir. Bu gün dünya üzrə ən yaxşı on şahmatçıdan ikisi azərbaycanlıdır. Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafı sahəsində görülən işlər beynəlxalq şahmat ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. 2019-cu ildə muxtar respublikada 60-dan çox yarış keçirilib, 100-dən çox şahmatçımız beynəlxalq yarışlarda iştirak edib. 2019-cu ildə 1 şahmatçımız Avropa üçüncüsü, 1 şahmatçımız Azərbaycan çempionu, 2 şahmatçımız Azərbaycan üçüncüsü, 11 şahmatçımız Azərbaycan çempionatının finalına vəsiqə qazanıb, 1 şahmatçımız isə beynəlxalq usta normasını yerinə yetirib. Bu il ilk dəfə 16 yaşlı şahmatçılar arasında dünya çempionatında Azərbaycan və Naxçıvan komandaları iştirak etmişdir. Ali Məclis Sədrinin tapşırığı ilə il ərzində şahmatın tədrisi ilə bağlı 2 kitab çap olunaraq bütün məktəblərə paylanıb. Təhsil Nazirliyi ilə birgə şahmatı tədris edən muxtar respublika müəllimlərinin sertifikasiyası keçirilib. Əlavə olaraq il ərzində rayon və şəhər məktəblərində valideynlərlə, şahmatçılar və müəllimlərlə görüşlər təşkil olunub.

Vurğulanıb ki, federasiya növbəti ildə fəaliyyətini daha da artırmalıdır. Şəhər və rayonlardakı şahmat məktəbləri ilə orta məktəblər arasında sıx əlaqə yaradılmalıdır. Məktəblərdə keçirilən tədbirlər barədə federasiyaya daim məlumat verilməlidir. Orta məktəblərdə istedadlı şagirdlər seçilərək şahmat məktəblərinə yönləndirilməlidir. Bundan başqa, muxtar respublikada dərəcə alan, Naxçıvanı beynəlxalq yarışlarda layiqincə təmsil edə biləcək şagirdlərlə mütəmadi iş aparılmalı, Bakıdan dəvət olunmuş müəllimlərlə belə şahmatçıların ayda bir dəfə görüşü təşkil olunmalıdır. 2020-ci il ərzində də yeni kitablar tərcümə olunmalı, yeniliklərin muxtar respublika şahmatçılarına çatdırılması diqqətdə saxlanılmalıdır.

Federasiya rəhbəri çıxışının sonunda diqqətə çatdırıb ki, bu gün Ali Məclis Sədrinin qayğısı nəticəsində Naxçıvan şahmatı yeni inkişaf dövrünü yaşayır. Şahmatçılarımız beynəlxalq arenada öz yerlərini tutur, reytinqlərini artırırlar. Bu iş növbəti ildə də davam etdiriləcəkdir.

Sonra 2019-cu ildə fərqlənən məşqçi-müəllimlərə, şahmatçılara və məktəblərə federasiya tərəfindən diplom, qiymətli hədiyyələr və pul mükafatları təqdim edilib, xatirə şəkli çəkdirilib.

Həmin gün Naxçıvan Şahmat Mərkəzində rayon şahmat məktəblərinin direktorları və məşqçi-müəllimləri ilə növbəti ildə qarşıda duran vəzifələrlə bağlı yığıncaq da keçirilib, vəzifələr müəyyənləşdirilib, məşqçi-müəllimlərin fikirləri dinlənilib, təkliflər müzakirə olunub.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kollektivi əsgərlərlə görüşüb



*Dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının əsgərləri ilə görüşüb, onlara bayram sovqatı təqdim ediblər.*

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov əsgərlərlə səmimi söhbət edərək deyib ki, bu gün Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində bütün hərbi hissələr müasir texnika və avadanlıqlarla təchiz olunub, maddi-texniki baza təkmilləşdirilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında istər əsgərlərin, istərsə də zabit-gizir ailələrinin sosial məişət şəraitinin yaxşılaşdırılması, yeni xidməti və yaşayış binalarının tikilib istifadəyə verilməsi ardıcıl xarakter alıb. Xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir. Son illər Silahlı Qüvvələrin taktiki təlimlərində daxili qoşunların şəxsi heyətinin də iştirakı və verilən tapşırıqların peşəkarlıqla icrası bu hərbi hissədə əldə olunan nailiyyətlərin daha bir ifadəsidir.

Nazir qeyd edib ki, əsgərlər şərəfli bir vəzifəni yerinə yetirdiyi üçün xalqımız və dövlətimiz onlarla qürur duyur. Birlik və həmrəylik hərbi xidmətin əsasını təşkil edir. Düşmən qarşısında güclü olmaq üçün, ilk növbədə, şəxsi heyət arasında birlik yaradılmalıdır. Əsgər və zabitlərimizdə bu birliyin daha da güclü olmasını arzu edən nazir Vətənə sədaqətlə xidmət edən hərbçiləri Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edərək onlara şərəfli xidməti vəzifələrində uğurlar arzulayıb.



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov çıxışında hərbi hissədə xidmət edən əsgər və zabitləri bayramlar münasibətilə təbrik edib.

Hərbi hissənin əsgərlərindən Ağabəy Ağabəyli və Ceyhun Məhərrəmov onlarla görüşə gəldiklərinə görə qonaqlara minnətdarlıqlarını bildiriblər.

Gətirilən bayram sovqatı hərbi hissəyə təhvil verilib.

Sonra qonaqlar və əsgərlər bayram münasibətilə təşkil olunan konsert proqramına baxıblar.

Briqadanın özfəaliyyət kollektivinin, "Şahinlər" instrumental ansamblının maraqlı çıxışları olub. Əsgər və zabitlərin oxuduqları mahnılar, ifa olunan rəqslər alqışlarla qarşılanıb.

Tədbir hərbi hissənin qonaqları və əsgərlərin iştirakı ilə bayram süfrəsi arxasında davam etdirilib.

**✍ Pərviz HACILI**

## Kollegiya iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən kollegiya iclasında çıxış edən nazir, general-leytenant Şamı Abdullayev qeyd edib ki, cari ildə nazirliyin maddi-texniki bazası gücləndirilib, Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binasının və texniki qarajının tikintisinin birinci mərhələsi başa çatdırılıb.*



Cari ildə mülki müdafiə işinin təşkili ilə bağlı 319 obyektdə yoxlama aparılıb, 3250 nəfər mülki müdafiəyə və fövqəladə hallara hazırlanıb, 480 obyektdə 12 min 674 nəfərin iştirakı ilə maarifləndirici tədbir, 212 məktəbin dərs hissə müdiri və hərbi rəhbəri ilə tədris-metodik toplantı keçirilib.

Bildirilib ki, muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə yoxlamalar aparılıb, 488 obyektdə maarifləndirici tədbirlər təşkil edilib. Fərdi yaşayış evlərində reydlər keçirilərək qeyri-standart 108 elektrik, 189 şlanqla çəkilmiş qaz xəttinin və 98 qazla işləyən nasaz su qızdırıcının istismarı dayandırılıb. Digər obyektlərdə aşkar edilmiş qaz sızmaları isə aradan qaldırılıb.

Ot-taxıl biçini dövründə 139 kombayn, 11 un dəyirmanı və 2 yem anbarı yanğına qarşı yoxlanılıb, intensiv biçin aparılan sahələrdə yanğından mühafizə bölmələrinin patrul xidməti təşkil olunub.

Nazir qeyd edib ki, 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində 758 qazanxananın texniki və yanğın təhlükəsizliyi vəziyyəti yoxlanılıb, 314 nəfər mövsümi işçi ocaqçı-maşinist kurslarına cəlb olunub. 90 ticarət, 75 ictimai iaşə və təsərrüfat obyektinə baxış keçirilib. Baş Dövlət Sığorta Agentliyi ilə birgə 905 obyektin yanğından icbari sığortalanması təmin edilib.

Hesabat dövründə 91 tikinti obyektində yoxlama-nəzarət funksiyaları həyata keçirilib, 45 tikinti obyektinin ərazisindən qrunt nümunələri götürülərək sınağı aparılıb. 54 obyektin işçi və layihə sənədləri ekspertizadan keçirilib, tikinti-quraşdırma işlərini aparan 1 obyektə lisenziya verilib, tikintisi başa çatdırılmış 47 obyektin istismara hazırlığı yoxlanılıb, laboratoriya şəraitində tikinti materiallarının 159 sayda nümunəsi sınaqdan keçirilib.

Çıxışda vurğulanıb ki, cari ildə fövqəladə hallarda fəaliyyəti zəruri olan müəssisə və təşkilatların fövqəladə hallara hazırlığı yoxlanılıb, aşkar edilən çatışmazlıqlar aradan qaldırılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

*2019-cu ilin sonuna sayılı günlər qalıb. Yaradılmasının 95 illiyini böyük nailiyyətlərlə başa vuran muxtar respublikamızda bütün sahələrin dinamik inkişafı təmin olunmuş, həyata keçirilən quruculuq-abadlıq tədbirləri bütünlükdə qədim diyarın simasını daha da dəyişmişdir. Görülən işlərin nəticəsidir ki, 2019-cu ilin ötən dövründə sənaye məhsulunun həcmi artaraq 1 milyard 15 milyon manata çatmış, kənd təsərrüfatı məhsullarının istehsal həcmi 507 milyon 641 min, ümumi daxili məhsulun həcmi 2 milyard 839 milyon manatdan çox olmuş, muxtar respublika üzrə 3250 yeni iş yeri açılmışdır. Təbii ki, əldə olunmuş uğurlarda muxtar respublikamızın hər bir bölgəsinin öz payı var. Bu il yaradılmasının 15 ili tamam olan Kəngərli rayonu da özünün hərtərəfli inkişafı ilə 95 illik muxtariyyət tariximizə töhfələrini verməkdədir.*



*Müasirləşən bölgələrimiz*

# Kəngərli rayonu cari ili də mühüm quruculuq nailiyyətləri ilə başa vurur

Naxçıvanın qədim Kəngərlilər tayfasının adını şərəflə daşıyan bu rayon yaradıldığı gündən indiyədək elə sürətli inkişaf dövrü keçib ki, bəzən görülən bütün bu işlərin 15 ilə necə sığdığına inana bilmirsən. Belə ki, Qıvraq qəsəbəsi və 10 kəndi birləşdirən rayonda avtomobil yolları yenidən qurulub, bütün yaşayış məntəqələrində infrastruktur quruculuğu işləri aparılıb, bölgədə muxtar respublika iqtisadiyyatında böyük payı olan sənaye və kənd təsərrüfatı istehsalı sahələri yaradılıb. Görülən işlərin nəticəsidir ki, rayonun sosial-iqtisadi inkişafında baş verən müsbət dəyişikliklər də ildən-ilə artmaqdadır. Statistik məlumatlara nəzər yetirsək, görərik ki, bu ilin yanvar-oktyabr aylarında rayonda 16 milyon 172 min 300 manat dəyərində sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 0,6 faiz çoxdur. Kənd təsərrüfatının inkişafında da müsbət dinamika qorunub saxlanılmış, 38 milyon 525 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricini 4,8 faiz üstələmişdir. İnfrastruktur quruculuğu çərçivəsində isə 2019-cu ilin yanvar-oktyabr aylarında Kəngərli rayonunda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 36 milyon 106 min 700 manat dəyərində vəsait yönəldilmişdir. Bunun da 33 milyon 562 min 800 manatı və ya 93 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.





Ümumiyyətlə, rayon yaradıldığı dövrdən indiyədək infrastruktur quruculuğu tədbirləri davamlı xarakter almış, yeni-yeni obyektlər istifadəyə verilmişdir. Belə ki, ötən 15 il ərzində rayonda 79,9 kilometr yeni yol salınmış, 6 körpü qurulmuş, tarixi abidələrimizə, eləcə də dünya əhəmiyyətli memarlıq nümunəsi olan Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilmişdir. Tikinti-quruculuq işləri rayon mərkəzi ilə yanaşı, kəndləri də əhatə etmiş, 5382 şagird yerlik 12 məktəb, 224 yerlik uşaq bağçası tikilmiş, Mədəniyyət Sarayı, 2 muzey, şahmat məktəbi, 11 tibb müəssisəsi, 2 uşaq musiqi məktəbi, 10 kənd və 10 xidmət mərkəzi istifadəyə verilmişdir.

Bu sahədə görülən işlər əvvəlki dövrlərdə olduğu kimi, cari ildə də diqqət mərkəzində saxlanılmışdır. Bu ilin ötən dövrünə nəzər salsaq görərik ki, infrastruktur quruculuğu çərçivəsində aparılan işlər davam etdirilmiş, bir sıra yeni obyektlər tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Məsələn, bu ilin fevral ayından etibarən rayonun Qabıllı kəndinin ərazisində yeni Günəş Elektrik Stansiyası fəaliyyətə başlamışdır. 2 meqavat gücündəki Günəş Elektrik Stansiyasının tikintisi Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL Şirkəti arasında 2018-ci ildə imzalanmış müqavilə əsasında həyata keçirilmişdir. Stansiyanın gücü il ərzində 3 milyon kilovat-saat elektrik enerjisinin istehsalı üçün nəzərdə tutulub. Hazırda isə burada yeni 3 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisi aparılır. Bu obyekt istifadəyə verildikdən sonra hər iki stansiyada istehsal olunacaq elektrik enerjisi muxtar respublikanın enerji təminatına öz töhfəsini verəcək.

2019-cu il martın 7-də rayonun yaradılmasının 15 illiyi münasibətilə Qıvraq qəsəbəsində zirzəmi ilə birlikdə 7 mərtəbəli 48 mənzilli yeni yaşayış binası, Qurtuluş Günü ərəfəsində – iyunun 11-də isə Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün 44 mənzilli, 5 mərtəbədən ibarət yaşayış binası istifadəyə verilmişdir. Həmçinin aparılan abadlıq-quruculuq tədbirləri çərçivəsində Qıvraq qəsəbəsinə məxsusi gözəllik bəxş edən yeni istirahət parkı salınmışdır. 1,6 hektar ərazini əhatə edən parkda dekorativ ağaclar və gül kolları əkilmiş, fəvvarə qurulmuş, müasir işıqlandırma sistemi yaradılmış, oturacaqlar qoyulmuş, uşaqlar üçün burada müxtəlif attraksionlar və nağıllar aləmini xatırladan kiçik evciklər quraşdırılmışdır.



Rayon mərkəzində inşası başa çatdırılmış yeni obyektlərdən biri də "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin rayon filialı üçün binadır. Bu ikimərtəbəli binada bank işçiləri, o cümlədən müxtəlif xidmətlərin göstərilməsi üçün hərtərəfli şərait yaradılmışdır.

Qədim diyarımızın bir çox bölgələrində olduğu kimi, Kəngərli rayonunda da tarixi-mədəniyyət abidələri əsaslı şəkildə bərpa edilir, onlara ikinci həyat verilərək turizm üçün cəlbediciliyi təmin olunur. Tarixi əhəmiyyəti ilə seçilən belə tikililərdən biri də Şahtaxtı hamamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən bu il XIX əsrin yadigarı olan, 210 kvadratmetrlik ərazini əhatə edən Şahtaxtı hamamında kompleks quruculuq işlərinə başlanılıb. Quruculuq tədbirləri zamanı abidənin təməl hissəsi möhkəmləndirilib, hamamın ilkin görünüşü saxlanılmaqla bərpa işləri aparılıb. Artıq bu tarixi-memarlıq abidəsində də işlər yekunlaşdırılıb.

Bu il rayonda kompleks quruculuq işlərinin aparıldığı ünvanlardan biri də Böyükdüz kəndidir. Cari ilin ötən dövründə buradakı tam orta məktəbin binası yenidən qurulub, gələcək perspektiv nəzərə alınaraq şagird yeri sayı artırılıb. Eyni zamanda məktəbdə müasir tədris şəraiti yaradılıb. Yeni kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının binaları da müasir tələblərə uyğun qurulub, kənd sakinlərinə aidiyyəti üzrə yüksək xidmətlər göstərilməsi üçün müasir iş şəraiti yaradılıb. Bu da onlara uzaq məsafəyə getmədən nəzərdə tutulmuş xidmətlərdən hərtərəfli yararlanmağa imkan verəcək.

Görülən tədbirlər çərçivəsində kənddə aparılmış abadlıq işləri də diqqət çəkir. Belə ki, kəndi Naxçıvan-Sədərək magistral yolu ilə birləşdirən avtomobil yolunun yenidən qurulması, həm də kənddaxili yollarda abadlıq işlərinin aparılması sakinlərin rahat gediş-gəlişini təmin edəcək.

Bir sözlə, Böyükdüz kəndində istifadəyə veriləcək yeni obyektlər, abad yollar sakinlərin rahat yaşayışını təmin etməklə bərabər, həm də onlara əsl Yeni il hədiyyəsi olacaq.

**Səbuhi HƏSƏNOV**

# Sərnişinlərə nümunəvi xidmət şəraiti yaradılıb



*Digər nəqliyyat növlərindən fərqli olaraq müxtəlif növ daşımaların həyata keçirilməsində faydalı iş əmsalının yüksək olması ilə seçilən dəmiryol nəqliyyatının muxtar respublikamızda yük və sərnişindaşımalarında öz rolu var. Buna görə yeni avadanlıqların, maşın və mexanizmlərin alınıb gətirilməsi, yolların əsaslı təmiri və yenidən qurulması, vaqonların istismara yararlı vəziyyətdə olması da diqqət mərkəzində saxlanılır, yük və sərnişindaşımalarının etibarlılığı təmin edilir. İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi muxtar respublikada nəqliyyatın bu növündən istifadə edənlərin sayının ilbəil artmasına səbəb olub.*

Qış mövsümünə hazırlıq tədbirlərinin vaxtında və düzgün həyata keçirilməsi dəmiryolçuların işlərini günün tələbləri səviyyəsində qurmalarından xəbər verir. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, Ordubad-Culfa sahəsində hərəkət edən yük, sərnişin qatarlarında dartı vasitəsi kimi istifadə məqsədilə yeni manevr teplovozu alınıb. Culfa Lokomotiv Deposunda qış mövsümündə istismar olunacaq 5 elektrovozun və 5 manevr-magistral teplovozun hərəkət və dartı hissələri müayinə olunaraq onlara baxış keçirilib, cari və depo təmirləri keyfiyyətlə aparılıb.

Mövsümə hazırlıqla əlaqədar olaraq 110 müxtəliftipli vaqon və depo cari təmir edilib. Lokomotivlərin və istilik sistemləri ilə təchiz olunmuş sərnişin vaqonlarının mövsümə hazırlığı ilə əlaqədar tələb olunan ehtiyat hissələri və sürtkü yağı tədarük edilib. Sərnişin vaqonlarının qızdırılması üçün kifayət qədər daş kömür ehtiyatı yaradılıb, əlavə olaraq 60 ton daş kömürün alınıb gətirilməsi üçün sifariş verilib. Cari ilin qış mövsümündə vaqon və lokomotivlərin normal və fasiləsiz istismarının təmin olunması məqsədilə əlavə ehtiyat hissələri gətirilib.

Bundan əlavə, xidməti ərazidə qatarların təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə baş və stansiya yollarının vəziyyəti yoxlanılaraq bütün qüsurlu rels bərkidiciləri dəyişdirilib, yolun plan və profil üzrə təlimata uyğun saxlanılması məqsədilə təkan və çarpaz yatmalar aradan qaldırılıb.

Defektoskop briqadası tərəfindən 1018 kilometr baş yol, 147 kilometr qəbul-göndərmə yolu, 327 dəst yoldəyişən qurğu və 45 min 186 qaynaq calağı yoxlanılıb.





Yol təsərrüfatında sağlamlaşdırma işlərinin aparılması məqsədilə cari ilin may ayında Bakı şəhərindən 250 təzə dəmir-beton şpal, noyabr ayında isə 2000 təzə ağac şpal alınaraq gətirilib və ehtiyac duyulan sahələrdə dəyişdirilməsinə başlanılıb.

"Naxçıvan Dəmir Yolları" MMC-dən onu da bildirdilər ki, xidməti ərazidə yararsız vəziyyətdə olan 609 şpal yenisi ilə, 167 yararsız ağac şpal yarımyararlı dəmir-beton şpallarla, 26 yararsız ağac şpal isə yarımyararlı ağac şpallarla əvəz edilib. Əlavə olaraq Culfa İstismar Vaqon Deposunun təmir sexinin içərisində 2 yeni dalan yolunun çəkilişi 68 təzə dəmir-beton şpal qoyulmaqla davam etdirilir.

Qatar dispetçerləri ilə maşinistlər arasında olan radiorabitənin etibarlılığının artırılması məqsədilə də lokomotiv və stansiyalarda istismar müddəti ötmüş 136 müxtəlif tipli blok və 128 müxtəliftipli rele yoxlanılaraq dəyişdirilib. Ordubad-Aza və Culfa-Vəlidağ sahələrində magistral rabitə kabelinin izolyasiyası texniki normaya uyğunlaşdırılıb. Xidməti ərazidə rels dövrələrində yarana biləcək nasazlıqların vaxtında qarşısının alınması məqsədilə 47 yoldəyişənin izolyasiya dəsti yenilənib. 46 izolyasiya calaqları yenisi ilə əvəz olunub. Naxçıvan-Şərur sahəsindəki stansiyalarda da dartı relsləri arasındakı mis rels birləşdiriciləri bərpa edilib. Culfa stansiyasının cüt boğazında rels dövrəsindəki nasaz vəziyyətdə olan 60 metr idarəetmə kabeli dəyişdirilib.

Aldığımız məlumatda onu da öyrəndik ki, son illər əsaslı təmir olunmuş və yenidən qurulmuş binalarda quraşdırılmış 11 fərdi qazanxana vasitəsilə qış mövsümündə 18 bina istilik sistemi ilə təmin olunur. Təmir sexlərində və digər strukturlarda isə 9 "Kombi" markalı qızdırıcıdan istifadə edilir. Bütün qazanxanalara texniki baxış keçirilərək onlar saz vəziyyətə gətirilib.

Həyata keçirilən tədbirlər muxtar respublikada dəmiryol nəqliyyatının vaxtında və təhlükəsiz hərəkətinin təminatına zəmanət verir.

**Pərviz HACILI**

*Sağlamlıq insanın həmişə can atdığı və həyatı boyu istədiyi, hətta yaxınlarına, sevdiklərinə arzuladığı ən böyük səadətdir. Sağlam yaşamaq – sağlam düşünmək, sağlam çalışmaq, sağlam mühit və sağlam gələcəkdir. Elə məhz buna görə də, muxtar respublikada əhalinin sağlamlığının qorunması və sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Bu gün insanlara nümunəvi xidmətin göstərilməsi məqsədilə səhiyyə ocaqlarının tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, hər şeydən əvvəl, əhalinin sağlamlığının qorunması naminə edilir.*

# İcbari tibbi sığortanın tətbiqi sağlam gələcəyə hesablanmış dövlət siyasətidir



Statistikaya nəzər salaq. Təkcə 2010-cu ildən 2019-cu il yanvarın birinə qədər Naxçıvan Muxtar Respublika Xəstəxanası, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Babək, Ordubad, Kəngərli, Sədərək Rayon Mərkəzi Xəstəxanaları olmaqla, ümumilikdə, 13 xəstəxana, 37 həkim ambulatoriyası, 53 feldşer-mama məntəqəsi və digər səhiyyə obyektləri tikilərək istifadəyə verilib.

Bu sahəyə göstərilən qayğının davamı olaraq 2017-ci ildən muxtar respublikada bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə istifadə edilən icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Vətəndaşların mənafeyinə yönəldilmiş, onların keyfiyyətli tibbi xidmət və dərmanlarla təmin olunmasına yardım edən icbari tibbi sığortanın tətbiqi artıq bir neçə ildir ki, muxtar respublikamızda yüksək səviyyədə davam etdirilir. Muxtar respublikada icbari tibbi sığorta ilk olaraq Sədərək rayonunda tətbiq olunub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2017-ci il 3 may tarixli Fərman və "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə dair tədbirlər planı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 31 may tarixli Sərəncam imzalayıb. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən 2017-ci il iyulun 1-də həmin rayonda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Artıq muxtar respublikanın Sədərək və Kəngərli rayonlarında bu iş başa çatdırılıb. İcbari tibbi sığortanın uğurlu tətbiqi məqsədilə Sədərək Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılıb, ən müasir texnoloji yenilikləri özündə birləşdirən tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılıb, Səhiyyə İnformasiya İdarəetmə Sistemi qurulub və vahid məlumat bazasının idarə edilməsi üçün server otağı təşkil edilib.

Sədərəkdən sonra icbari tibbi sığortanın tətbiq edildiyi növbəti rayon Şərur rayonu olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı "Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 25 yanvar tarixli Sərəncama uyğun olaraq Şərur rayonunda da icbari tibbi sığortanın tətbiqinə başlanılıb.

Şahbuz rayonunda da icbari tibbi sığortanın tətbiqinə uğurla start verilib və buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 1 noyabr 2019-cu il tarixli 158 nömrəli Qərarı ilə "Şahbuz Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilib. Qeyd edək ki, xəstəxana Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyindədir və Şahbuz rayonunun əhalisinə çoxprofilli stasionar və ambulator tibbi yardım göstərən laborator müalicə və profilaktika təyinatlı diaqnostik müəssisədir. Eləcə də səhiyyədə tətbiq edilən profilaktika, diaqnostika və müalicə üsulları, tibbi texnologiyalar, dərman və dezinfeksiya vasitələrindən təlimatlara uyğun istifadə etmək, tibb personalı tərəfindən dərman və dezinfeksiya vasitələrindən, immunobioloji preparatların təyinatı üzrə işlədilməsini təmin etmək, onların saxlanılması şəraitinə və yararlılıq müddətinə nəzarət xəstəxananın qarşısında duran vəzifələrdəndir.

Bundan başqa, muxtar respublika rəhbərinin müvafiq sərəncamlarına əsasən Kəngərli, Ordubad və Babək rayonları da icbari tibbi sığortanın tətbiq edildiyi rayonlar sırasına daxil edilib. Sevindirici haldır ki, icbari tibbi sığortanın tətbiqinə başlanılan rayonlarda tibb işçilərinin əməkhaqları əhəmiyyətli dərəcədə artırılıb.

Bir sözlə, icbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edəcəkdir. İcbari tibbi sığortanın tətbiq edildiyi rayonlarda yaşayan əhali tərəfindən, ümumilikdə, tibb müəssisələrinə 23 min 314 müraciət olunub. Müraciət edənlərə 58 min 978 adda tibbi xidmət göstərilib.

İcbari Tibbi Sığortanın baza zərfinə daxil olan rayon mərkəzi xəstəxanaları tərəfindən həyata keçirilməsi mümkün olmayan tibbi xidmətlər üçün icbari tibbi sığortanın tətbiqində iştirak edən digər xəstəxanalara Sədərək, Şərur, Kəngərli, Şahbuz, Ordubad və Babək rayonlarından, ümumilikdə, 1741 göndəriş olub.

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam isə həyata keçirilən tədbirlərin davamıdır. Sərəncama əsasən 2020-ci il yanvarın 1-dən Naxçıvan şəhərində icbari tibbi sığorta tətbiq ediləcək. Bu məqsədlə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına, Naxçıvan Muxtar Respublika, Əziz Əliyev adına Mərkəzi Uşaq xəstəxanalarına, Naxçıvan Muxtar Respublikası Kardioloji və Doğum mərkəzlərinə publik hüquqi şəxs statusu verilib. Həmin səhiyyə müəssisələrində çalışanların aylıq vəzifə maaşları 2020-ci il yanvarın 1-dən 50 faiz artırılıb. Göründüyü kimi, yeni dövlət sənədi də Naxçıvan şəhərində və muxtar respublikada icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədinə xidmət edir.

Danılmaz həqiqətdir ki, muxtar diyarımızda aparılan genişmiqyaslı islahatlar nəticəsində səhiyyə sistemi bu gün sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan, tətbiq olunan nə varsa, əhalinin sağlamlığının qorunmasına xidmət edir. Səhiyyə sahəsində çalışanlar isə yaradılan şəraitdən istifadə etməklə, əhaliyə nümunəvi səhiyyə xidməti göstərməyi iş prinsiplərinə çevirməklə qarşılarına mühüm məqsəd qoyublar. Ali Məclis Sədrinin dediyi kimi: ***"Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir".***

*Təbii ki, gələcəkdə hədəf bu xidməti muxtar respublikanın bütün rayonlarında təşkil etməklə vətəndaşların sağlamlığının tam təmin olunması üçün müvafiq işlər görməkdir. Bu istiqamətdə görülən işlərin nəticəsi isə göz qabağındadır. Yəni dövlətin qayğısı ilə həm vətəndaşın sağlamlığı diqqət mərkəzində olur, həm də ona xidmət edən tibbi personalın əməkhaqları artırılır. Nəticədə isə sağlam cəmiyyət formalaşır.*

**Nuray ƏSGƏROVA**
***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

# "Əbədiyyətə qovuşanların qış fəsli" adlı sərgi



*Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələri, yaradıcılıqları ilə tariximizdə yaşayan tanınmış fırça ustalarının rəsm əsərlərindən ibarət "Əbədiyyətə qovuşanların qış fəsli" adlı sərgi açılıb.*

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açaraq sərgidə nümayiş olunan rəsm əsərlərinin toplanmasında, görkəmli fırça ustalarının tərcümeyi-hallarının tərtib edilməsində əməyi keçənlərə təşəkkürünü bildirib. Qeyd edib ki, tarixən Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələri yetişib və onlar dəyərli əsərləri ilə qədim diyarımızın zəngin keçmişinə, adət-ənənələrinə



işıq salmaqla həm də bu günümüzlə dünənimiz arasında körpü yaradıblar. Dövlətimiz hər zaman mərhum rəssamların sənət irsinə böyük qayğı ilə yanaşıb, tanınmış incəsənət xadimlərinin yubileyləri yüksək səviyyədə qeyd edilib, əsərləri qorunaraq saxlanılıb. Bu gün keçirilən sərgi də məhz bu istiqamətdə atılan növbəti mütərəqqi addımdır. Sərgidə Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən 23 rəssamın 95-ə yaxın əsəri sərgilənir, eyni zamanda ayrı-ayrı fırça ustalarının tərcümeyi-halları da nümayiş olunur ki, bu da sərgiyə tamaşa edənlərdə mərhum sənət adamlarının həyat və yaradıcılıqları barədə dolğun təəssürat yaradacaq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxışında bildirib ki, 2019-cu ildə Rəssamlar Birliyi özünəməxsus fəaliyyəti ilə muxtar respublikanın yaradılmasının 95 illiyinə dəyərli töhfələr verib. Cari ildə naxçıvanlı rəssamların rəsm əsərlərindən ibarət sərgilər, eləcə də Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar rəsm festivalı, "Yurdumun rəngləri" adlı festival-müsabiqə keçirilib, rəssamların əsərlərindən ibarət albom-kataloq nəşr olunub.

Vurğulanıb ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində son illər ərzində Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələrinin irsi daha dərindən araşdırılaraq öyrənilib, əsərləri toplanaraq kataloq halına salınıb. Görülən işlər tanınmış rəssamların həyat və yaradıcılıqlarının daha geniş tədqiq olunmasına və öyrənilməsinə xidmət etməklə bərabər, həm də görkəmli sənətkarların irsinə göstərilən diqqətin və muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir. Növbəti sərgi də məhz dəyərli rəssamlarımıza, onların irsinə ehtiram əlaməti olaraq təşkil olunub.

Tədbirdə tanınmış rəssamlar, ayrı-ayrı sənət adamları, Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun əməkdaşları, sərgidə əsərləri nümayiş olunan mərhum rəssamların qohumları çıxış edərək öz xatirələrini bölüşüblər.

Qeyd edək ki, "Əbədiyyətə qovuşanların qış fəsli" adlı sərgi 20 gün davam edəcək.

**Nail ƏSGƏROV**

# Yeniyetmə və gənclər mükafatlandırılıblar

*Naxçıvan şəhərindəki "Duzdağ" otelində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılma mərasimi keçirilib.*





Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib.

Gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov tədbirdə çıxış edərək vurğulayıb ki, 2019-cu ili ölkəmizdə, həmçinin muxtar respublikamızda gənclər və idman sahəsi üçün nailiyyətlər ili də adlandırmaq olar. Gənclərimiz və idmançılarımız üçün yaradılan şəraitin, ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərdə iştiraklarının təmin olunmasının nəticəsidir ki, onlar muxtar respublikamızı müxtəlif arenalarda layiqincə təmsil edir və bizləri sevindirirlər.

"Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qeyd olunan bu tarix dünya azərbaycanlılarının vahid Vətəni–Azərbaycan Respublikasının ictimai-siyasi maraqları ilə bir olmağa, həmrəyliyə çağırış bayramıdır", – deyən Azad Cabbarov qeyd edib ki, muxtar respublikamızda da bu münasibətlə bayram tədbirləri təşkil olunur, fərqlənən gənclərimizin fəaliyyəti dövlətimiz tərəfindən qiymətləndirilir.

Sonda nazir 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə gəncləri təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev 2019-cu ildə muxtar respublikada gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətin stimullaşdırılmasından, bu sahədəki tədbirlərin, gənclərlə bağlı layihələrin həyata keçirilməsinin daha da genişləndirilməsindən danışıb.

Cəbi Quliyev yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə Naxçıvan gəncləri adından minnətdarlığını bildirib.

Sonra tədbirin simvolu sayılan tortu kəsmək üçün gənclər səhnəyə dəvət olunublar.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər mükafatlandırılıblar. Qeyd edək ki, Gənclər və İdman Nazirliyi tərəfindən müxtəlif nominasiyaların qaliblərini müəyyən etmək üçün internet vasitəsilə sosial sorğu keçirilib. Bunlara "İlin ən yaxşı gənc jurnalisti", "İlin ən yaxşı gənc rəssamı", "İlin ən yaxşı gənc rejissoru", "İlin ən yaxşı gənc yazıçısı", "İlin ən yaxşı gənc aktyoru (aktrisası)", "İlin ən yaxşı gənc müğənnisi", "İlin ən yaxşı gənc musiqiçisi", həmçinin "İlin fəal xəbər saytı" nominasiyaları daxildir.

Bayram tədbiri musiqi və rəqs nömrələri ilə davam edib.

**Ceyhun MƏMMƏDOV**

**Parlament seçkiləri – 2020**

# Seçki marafonu

**9 fevral 2020-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbədənkənar seçkilər günüdür.**

*Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.*

*İmza toplamaq məqsədilə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə və siyasi partiyanın səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi qaydaları Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ilə tənzimlənir.*

**Namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması şərtləri**

▪ Seçicilərin təşəbbüs qruplarının irəli sürdükləri və ya öz təşəbbüsləri ilə irəli sürülən namizədlərin müdafiəsi məqsədilə seçicilərin imzalarının toplanması seçki qanunvericiliyində göstərilən qərarın qəbul edildiyi gündən başlanır. Siyasi partiyalar tərəfindən irəli sürülmüş namizədlərin müdafiəsi məqsədilə seçicilərin imzalarının toplanması seçki qanunvericiliyində göstərilən qərarın qəbul edilməsi günündən başlanır.

▪ Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin imzaları toplanmalıdır.

▪ Hər bir imza vərəqəsində namizədin soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri və ya tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), yaşadığı yerin ünvanı, irəli sürüldüyü seçki dairəsinin adı (sıra nömrəsi) göstərilməlidir.

Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, imza vərəqəsində onun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin hansı maddəsi ilə məhkum olunduğu, həmin maddənin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir.

▪ İmza vərəqəsində namizədin namizədliyinin irəli sürülməsinə razılıq ərizəsində göstərdiyi siyasi partiyanın adı göstərilə bilər.

▪ Namizədin müdafiəsi üçün imza toplanmasını müvafiq seçki dairəsi üzrə namizədi irəli sürmüş siyasi partiya həyata keçirirsə, imza vərəqəsində namizədə aid məlumatlarla yanaşı, bu namizədi irəli sürmüş siyasi partiyanın adı da göstərilir, namizədin ərizəsində belə məlumat olarsa, onun mənsub olduğu siyasi partiyanın adı və siyasi partiyada onun müvafiq statusu göstərilə bilər.

**Namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydası**

▪ Dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağana əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydiyyatından, qeydə alınmış namizədlərin qeydiyyatından imtina üçün əsas ola bilər.

▪ Seçici imzalarını Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan vətəndaşı toplaya bilər. Namizəd və siyasi partiya seçici imzalarını toplayan şəxslə imza toplanması barədə müqavilə bağlaya bilər. Belə işin haqqı yalnız namizədin, siyasi partiyanın seçki fondu hesabına ödənilə bilər.

▪ Namizədin müdafiəsi üçün seçici imzaları tədris müəssisələrində, yaşayış yerlərində, eləcə də qanunla seçkiqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlərdə toplana bilər.

▪ Seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza etdiyi tarixi göstərir. İmza edən seçicilər barəsində qeyd edilməsi zəruri hesab olunan məlumatlar imza toplayan şəxs tərəfindən imza vərəqələrinə daxil edilə bilər. Göstərilən məlumatlar əllə yazılır və onların yayılmasına təminat verilir.

▪ Namizədin müdafiəsi üçün seçici imzaları toplanarkən imzalar imza vərəqəsinin üz və ya arxa tərəfində qoyulur. Belə olduqda, arxa tərəf vərəqənin üz tərəfinin davamı hesab edilir və təsdiqedici imzalar vərəqənin arxa tərəfində qoyulur.

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədin müdafiəsi üçün onun namizədliyinin irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə 300 imzası toplanmalıdır.**

▪ İmza toplandıqdan sonra imza vərəqəsi imza toplayan şəxs və namizəd tərəfindən imzalanır. İmza toplayan şəxs imza vərəqəsinə imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir.

▪ Namizəd siyasi partiya tərəfindən irəli sürülübsə, imza toplandıqdan sonra imza vərəqəsi imzaları toplayan şəxs və siyasi partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır. İmzaları toplayan şəxs imza vərəqəsində imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir, müvafiq səlahiyyətli nümayəndə isə soyadını, adını, atasının adını və imza qoyulması tarixini göstərir.

**Bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər.**

▪ Namizəd irəli sürmüş siyasi partiya, seçicilərin təşəbbüs qrupu müvafiq seçki komissiyasına eyni şəxsin namizəd irəli sürülməsi haqqında yazılı məlumat verdikdən sonra namizədin müdafiəsi üçün seçicilərin lazım olan sayda imzalarını birgə toplaya bilərlər. Bu halda namizədin irəli sürülməsinin müdafiəsi üçün müxtəlif şəxslərin topladığı seçici imzalarının cəmləşdirilməsinə icazə verilir.

▪ Namizədin irəli sürülməsinin təşəbbüsçüləri, namizədin və ya siyasi partiyanın səlahiyyətli nümayəndələri irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzalarının sayını hesablayır, seçici imzalarının toplanması nəticələri haqqında protokolu tərtib edir və imzalayırlar.

▪ Müvafiq seçki komissiyalarına təqdim edilən imza vərəqələri nömrələnməli və qovluq formasında səhifələnməlidir.

**Namizədin qeydə alınması üçün seçki sənədlərinin təqdim edilməsi**

▪ İrəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın səlahiyyətli nümayəndəsi seçki gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18⁰⁰-dək müvafiq seçki komissiyasına aşağıdakı seçki sənədlərini təqdim etməlidir:

1. irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri;
2. seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsi;
3. Seçki qanunvericiliyinin maddələrinə uyğun olaraq namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildiriş;
4. namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat;
5. mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat;
6. namizədin ilkin maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsait haqqında məlumatlar göstərilməklə).

**Seçki qanunvericiliyinin maddələrində göstərilən sənədlərdə qəsdən buraxılmayan səhvlər aşkar edilərsə, müvafiq seçki komissiyası namizədi 48 saat müddətində məlumatlandırmalı və buraxılan səhvlərin düzəldilməsini təklif etməlidir.**

▪ Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi bəyannamə formasında, seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən əvvəlki bir illik dövr üçün təqdim olunur. Eyni zamanda gəlirlərin alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış təqdim edilir. Əmlak və gəlirlər haqqında dərc edilməli məlumatların siyahısını Mərkəzi Seçki Komissiyası müəyyənləşdirir.

▪ Seçki komissiyaları seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələri sayının seçici imzaları toplanmasının yekunu haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbul edilmə tarixini və vaxtını qeyd edərək, namizədə və ya siyasi partiyanın səlahiyyətli nümayəndəsinə qəbul edilmiş imza vərəqələrinin sayını, oradakı imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı arayış verir. Həmin şəxslər tərəfindən müvafiq seçki komissiyasına müvafiq sənədlər seçki qanunvericiliyinin maddələrində göstərilmiş müddət başa çatanadək təqdim olunduqda, onların qəbul edilməsindən imtina edilə bilməz, namizədin, siyasi partiyanın səlahiyyətli nümayəndəsinin müvafiq binaya (otağa) daxil olmasına məhdudiyyət qoyula bilməz.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Məktəblilərin dram müsabiqəsi davam edir



Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən məktəblilərin dram müsabiqəsinin növbəti mərhələsi Təhsil Nazirliyinə birbaşa tabe müəssisələrin şagirdləri və məktəbdənkənar tərbiyə müəssisələrinin dərnək üzvləri arasında keçirilib.

Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd məktəblilərdə nitqin inkişafına, özünəinamın formalaşmasına, onların səhnə əsərlərinin canlı iştirakçısına çevrilməklə mövzunu fəal şəkildə mənimsəmələrinə, ədəbiyyata olan maraqlarının artmasına, eyni zamanda şagirdlərdə yaradıcı təfəkkürün inkişafına şərait yaratmaqdır. İstedadlı şagirdlərin üzə çıxarılmasında mühüm rol oynayan müsabiqənin şəhər (rayon) mərhələsi 16-28 dekabr tarixləri arasında ümumtəhsil məktəblərinin V-XI sinif şagirdlərinin iştirakı ilə keçirilir. Dekabrın 27-də olan müsabiqədə isə Nazirliyə birbaşa tabe 5 məktəbdən 42 şagird, məktəbdənkənar 4 tərbiyə müəssisəsindən isə 25 dərnək üzvü iştirak edib. Dram kollektivləri tamaşaya uyğun səhnə tərtibatı, əsərdəki dövrlə səsləşən geyim və aksesuardan istifadə edərək 5-15 dəqiqə ərzində seçdikləri parça, dialoq və kompozisiyaları canlı ifa etməklə müraciət olunan dram nümunələrinin mahiyyətini və ideyasını açmağa çalışıblar.

Müsabiqədə birinci yerlərin qalibləri fevral ayı keçiriləcək muxtar respublika birinciliyində iştirak etmək hüququ qazanacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Kitab təqdimatı keçirilib

*"Naxçıvan" Universitetinin elmi kitabxanasında dosent Ceyhun Mahmudovun və iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylunun "Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması" kitabının təqdimat mərasimi keçirilib.*





Tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq qeyd edib ki, universitetin fəaliyyətə başlamasının 20 illiyi münasibətilə nəşr olunmuş kitab dərs vəsaiti kimi müvafiq ixtisasların tələbələri üçün qiymətli elmi mənbədir.

Sonra universitetin İdarəetmə fakültəsinin dekanı Naim Cahidzadənin, dosent Mehdi Bağırovun və İdarəetmə kafedrasının müdiri, dosent İradə Bağırovanın kitab haqqında fikirləri dinlənilib. Bildirilib ki, dərs vəsaitində bazar iqtisadiyyatının tələbləri nəzərə alınaraq ölkəmizdəki proqnozlaşdırma proseslərinə bir çox cəhətdən yeni elmi tərzdə yanaşılıb. Proqnozlaşdırmanın əsas forma və metodları milli iqtisadiyyat, regional və ən vacib sahələr səviyyəsində nəzərdən keçirilib. Yeni nəşr Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması fənninin mənimsənilməsi üçün əlavə bir mənbə kimi hazırlanıb.

Sonda müəlliflər çıxış edərək dərs vəsaitinin dərc olunmasına göstərilən dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

**Seyfur HACIMURADOV**

## Naxçıvan Müəllimlər İnstitutunda bayram tədbiri



*Naxçıvan Müəllimlər İnstitutunda 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni il bayramı münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə 2019-cu ildə institut tələbələrinin ölkə və muxtar respublika miqyaslı müxtəlif yarış və müsabiqələrdə qazandıqları uğurları əks etdirən sərgiyə, Təsviri incəsənət müəllimliyi ixtisası tələbələrinin əl işlərinə baxıblar.*

Tədbiri giriş sözü ilə açan institutun prorektoru Azad Novruzov həmrəylik gününün tarixi və siyasi əhəmiyyətindən danışıb. O, qloballaşan dünyada azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması zərurətinə, ulu öndər Heydər Əliyevin bu sahədə apardığı məqsədyönlü işlərin tarixi önəm daşıyan siyasi məqamlarına toxunub. Çıxış zamanı, həmçinin başa çatmaqda olan 2019-cu ildə instituta göstərilən dövlət qayğısı, həyata keçirilən işlər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Tədbirin bədii hissəsindən sonra institutun istedadlı tələbələri tərəfindən vətənpərvərlik və həmrəylik mövzusunda musiqi nömrələri ifa edilib, şeirlər söylənilib. Sonda tələbələrin bir qrupu institutun ictimai işlərində fəallıqlarına görə fəxri fərman və diplomlarla təltif edilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 886